# ŞAGİRDLƏRİN TƏLİM NAİLİYYƏTLƏRİNİN YAXŞILAŞDIRILMASINDA SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏRİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**Səyyad Rəfiyev,**
*Bakı şəhəri, Binəqədi rayonu 99 nömrəli orta məktəbin müəllimi*
*E-mail:refiyev_s@mail.ru*

**Rəyçilər:** *ped.ü.fəls.dok.* Ə. Gərayev,
*ped.ü.fəls.dok..* dos. M. Kazımov

***Açar sözlər:*** *muzey, tarix, coğrafiya, dəyərlər, abidələr, ekskursiya, diyarşünaslıq, milli qəhrəmanlar, veteranlar*

***Ключевые слова:*** *музей, история, география, ценности, памятники, экскурсия, этнография, национальные герои, ветераны*

***Keywords:*** *museum, history, geography, values, monuments, excursion, ethnography, national heroes, veterans*

Müasir dövrdə mədəniyyətin inkişafının hərəkətverici qüvvələri içərisində muzeylər mühüm əhəmiyyət kəsb edir. Tədris müəssisələrində muzeylərin təşkil edilməsinin əsas məqsədi uşaq, yeniyetmə və gəncləri Vətənə məhəbbət, doğma yurdun maddi və mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə etmək, onlarda tarixi, elmi və mədəni abidələrin qorunmasına qayğı göstərmək kimi müsbət keyfiyyətlər aşılamaqdır.

Təhsil müəssisələrində təşkil edilir:

- Tarix-Diyarşünaslıq muzeyləri (tarix, coğrafiya, təbiətşünaslıq, iqtisadiyyat, ədəbiyyat, etnoqrafiya və mədəniyyət muzeyləri);
- Azərbaycanın görkəmli dövlət xadimlərinin həyat və fəaliyyətinə həsr edilmiş muzeylər;
- Azərbaycanın müharibə veteranlarına həsr edilmiş muzeylər;
- Şəhidlər muzeyi;
- Azərbaycanın Milli Qəhrəmanlarına həsr edilmiş muzeylər;
- Azərbaycanın Əmək veteranlarına həsr edilmiş muzeylər;
- Təhsil müəssisəsinin şəhid məzunlarına həsr edilmiş muzeylər;
- Təhsil müəssisəsinə adı verilmiş şəxsə həsr olunmuş muzeylər;
- Təşkil olunduğu təhsil müəssisəsinin tarixini əks etdirən muzeylər;
- Uzun müddət təhsil müəssisəsinə rəhbərlik etmiş şəxsə həsr edilmiş muzeylər;

Təhsil müəssisəsinin qabaqcıl müəllim, əlaçı şagird və tələbələrinə həsr edilmiş muzeylər;

- Respublikanın Əməkdar müəllimlərinə həsr edilmiş muzeylər;
- Azərbaycanın görkəmli elm xadimlərinə həsr edilmiş muzeylər;
- Müxtəlif tədris fənlərinə həsr edilmiş muzeylər;
- Xarici ölkələr ilə dostluq və əməkdaşlığa həsr edilmiş muzeylər;
- Şagird, tələbə və müəllimlərin rəsmləri, hazırladıqları dekorativ tətbiqi sənət nümunələrindən ibarət.

Təhsil müəssisələri muzeyləri tərbiyələndirici, inkişafetdirici, zənginləşdirici, formalaşdırıcı, maarifləndirici, təhsilləndirici istəqamətdə iş aparır. Tərbiyələndirici fəaliyyətə əxlaq tərbiyəsi, estetik tərbiyə, mənəvi tərbiyə, iqtisadi tərbiyə, hüquqi tərbiyə, vətənpərvərlik tərbiyəsi, ekoloji tərbiyə daxildir.

Təhsil müəssisələrinin rolunu göstərən, təhsil aldıqları müəssisənin tarixi ilə bağlı məsələləri özündə əks etdirən təşəbbüskar pedaqoqların və alimlərin həyatını işıqlandıran muzeylərdə şagird və tələbələr asudə vaxtlarında faydalanmalıdırlar.

Təhsil müəssisələri muzeylərinin nəzdində müxtəlif fənlər üzrə dərnəklər təşkil oluna bilər. Misal üçün, tədris müəssisələri daxilində fəaliyyət göstərən ədəbiyyat və tarix muzeyində həmin fənlərdən dərslərin stendlər qarşısında keçirilməsi tədris prosesinin keyfiyyətini yüksəldir. Tədris müəssisələrinin muzeylərinin xətti ilə tərbiyəvi əhəmiyyətli müxtəlif tədbirlərin həyata keçirilməsi diqqətəlayiqdir.

Muzeylər elmi-axtarış işi aparır, toplanmış

əşyaları qeydiyyata alır, kolleksiyaları komplektləşdirilir, öyrənir, mühafizə edir, ekspozisiyanı təşkil edir, təbliğat işi aparır, müxtəlif mövzularda sərgilər hazırlayır və digər muzey tədbirləri həyata keçirir.

Uşağın ailədə aldığı gözəl hislər uşaq bağçasında, məktəbdə siniflərdə və məktəbdənkənar yerlərdə, daha sonralar ali təhsil ocaqlarında davam etdirilir. Müəssisələrdə, məktəblərdə tərbiyə və təlim proqramlarının əxlaq tərbiyəsi bölməsi üzrə işin yerinə yetirilməsi, yeni üsul və metodların səmərəli yolları araşdırılır və məktəblərdə, bağçalarda tətbiq edilir. Bu məqsədlə ilk növbədə şagirdlərin və uşaqların bu sahədə hansı biliklərə malik olmaları müəyyənləşdirilir və bu biliklərin dərinləşdirilməsi üçün lazımi tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının rayon, şəhər və kəndlərində, o cümlədən paytaxtımız Bakı şəhərinin görkəmli yerləri, tarixi abidələri, tarixi muzeyləri, diyarşünaslıq muzeyləri, Şəhidlər xiyabanı, döyüş qəhrəmanlarının abidəsinə ekskursiyaların təşkili, bundan başqa dövlət rəmzləri-bayraq, gerb, prezidentin şəkli, ulu öndər, ümummilli lider H. Əliyevin portreti, milli pul, xəritəmiz, himn yazılmış kaset, maqnitofon, milli ordumuzun fəaliyyətini əks etdirən müxtəlif foto şəkillər, albomlar, interaktiv cədvəllər oyunlar üçün. Bunların hamısı şagirdlərə təlim prosesində onların bilik və bacarıqlarının artırılmasında əsas rol oynayır. Milli qəhrəmanların və görkəmli şəxsiyyətlərin adına əkilən ağaclar, məzara qoyulan əklillər onları yad etmək ən yaxşı xatirədir.

Çoxillik pedaqoji fəaliyyətimin nəticəsi olaraq yaratmış olduğum Bakı şəhəri, Binəqədi rayonu Azadıq prospektində yerləşən H. Cəbrayılov adına 99 nömrəli tam orta məktəb (muzeyin yaradıcısı-Sayad Rəfiyev, +994 55 725 60 28) H. Əliyev adına Deportasiya olunmuş azərbaycanlıların Tarix-Diyarşünaslıq Muzeyi mühüm və əhəmiyyətli rol oynayır. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin icrası prosesində tarix-diyarşünaslıq işi və onun öyrənilməsinin əhəmiyyətinə baxaq. Muzeydə Azərbaycan xalqına məxsus sənətkarlıq növlərinin hamısına aid eksponatlar toplanmış, ədəbiyyatlar, metodiki vəsaitlər, illüstrasiya, fotolar, milli adət-ənənələrimizi əhatə edən milli qablar, milli geyimlər, milli zərgərlik əşyaları, tikmələr, albomlar, kasetlər, disklər və s. Bunların mətbuatda, televiziyada, radioda, internet saytında, çoxlu sayda izləyici qazanmasını buna parlaq nümunə göstərmək olar.

Bunlardan istifadə şagirdlərdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin icrası prosesində uşaqlara yeni bilikləri interaktiv təlim metodları və testlərlə aşılayır. Hər bir şagird bilməlidir ki, onun dünyaya göz açdığı şəhəri, kəndi var. Həmin yerin abidələri, məscidləri, dini ocaqları, parkları, H. Əliyev adına mərkəzlər, görkəmli yerlər, adlı-sanlı elm xadimləri, vətən müharibəsi iştirakçıları və Sovet ittifaqı Qəhrəmanları, 20 Yanvar şəhidləri, Xocalı faciəsi haqqında məlumatı olmalıdır. Bayram günlərini: Yeni İl bayramı, Beynəlxalq Qadınlar günü, Respublika günü, Azərbaycan xalqının Milli Qurtuluş günü, Azərbaycan Respublikasının Silahlı Qüvvələr günü, Dövlət Müstəqilliyi günü, Dövlət Bayrağı günü, Konstitusiya günü, Milli Dirçəliş günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı səhnəciklər, şənliklər, məşğələləri təşkil etmələri məqsədəmüvafiqdir.

Sinifdən-sinfə keçdikcə - dərslikdə tərbiyə cəhətdən qiymətli olan nümunəvi materialları öyrəndikcə-qəhrəmanların vətənpərvərliyini, vətənin gözəlliyini, onun müstəqilliyi uğrunda mübarizlərin həyatını öyrəndikcə, ataların keçdiyi yolu öyrənə-öyrənə vətəndaşlıq dərsi alaraq, Vətən, vətəndaşlıq borcunu dərindən başa düşərək insanın həyatda yeri və rolunu müəyyənləşdirirlər.

Tarix, ədəbiyyat, insan və cəmiyyət, əmək, ibtidai hərbi hazırlıq, bədən tərbiyəsi və b. fənlərin tədrisi prosesində vətənpərvərlik tərbiyəsi sahəsi üzrə daha çox imkanlar vardır.

Məhəmməd Peyğəmbər vətənin müstəqilliyinin mühüm məsələ olduğunu bildirərək göstərmişdir ki, «Vətəni sevmək imandandır».

*Abbas Səhhətin vətənlə bağlı misralarına diqqət yetirək:*

*Könlümün sevgili məhbubu mənim*
*Vətənimdir, vətənimdir, vətənim*
*Vətəni sevməyən insan olmaz*
*Olsa, o şəxsdə vicdan olmaz.*
*Məmməd Araz isə vətən haqqında belə deyir:*
*Vətən göz bəbəyi*
*Biz isə kiprik,*
*Kiprik göz bəbəyin*
*Qorusun gərək.*

Bu cür ibrətamiz fikirlər pedaqoji üsul vasitələrlə uşaqların vətənpərvərlik tərbiyəsində geniş istifadə edilməlidir.

Tarix-diyarşünaslıq materiallarının öyrədilməsində vətənpərvərlik tərbiyəsi böyük rol oynayır. Şagirdlərə Azərbaycanın təbii-coğrafi mühiti, onun gözəlliyi, sərvətləri barədə verilən məlumatlarla şifahi və ekskursiya vasitəsilə təsir, Azərbaycan xalqının inkişaf prosesinin izahı, insanlar arasında ictimai-siyasi fəallıq, Azərbaycanın müstəqil dövlət yaratmasında diplomatik səylər, şəxsiyyətin buna təsiri, müstəqil dövlətin özünün dünya əhəmiyyətli atributları, qədim tarixə, dini adət-ənənəsinə malik, tarix və mədəniyyət abidələrinin yaradılması və onun tədqiqində zəhmətkeş arxeoloqlarımızın vətənpərvərlik fəaliyyətləri, milli bayramların yad edilməsi, vətənin müdafiəsinə qalxmış xalq qəhrəmanları, milli ordunun təşkili, vətən uğrunda canını qurban verən şəhidlərin həyat və fəaliyyəti, onların qəhrəmanlıq nümunələri, Azərbaycan xalqını qəhrəmanlığa səsləyən musiqisi və etnoqrafiyası və ən nəhayət, Azərbaycan təhsil sisteminin böyük bəşəri nailiyyətlərinin öyrədilməsi sözün əsil mənasında vətənpərvərlik tərbiyəsi üçün dəyərli vasitələrdir, pedaqoji əsasdır.

**Problemin aktuallığı.** Muzeylər tarixin müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinə sayılır. Bu xəzinədən məktəbli və gənclərin bəhrələnməsi daha vacib məqamlardan sayılmalıdır

**Problemin elmi yeniliyi.** Tarix-diyarşünaslıq materiallarının öyrədilməsində vətənpərvərlik tərbiyəsi böyük rol oynayır. Şagirdlərə Azərbaycanın təbii-coğrafi mühiti, onun gözəlliyi, sərvətləri barədə verilən məlumatlarla şifahi və ekskursiya vasitəsilə təsir, Azərbaycan xalqının inkişaf prosesinin izahı, insanlar arasında ictimai-siyasi fəallıq yaradır.

**Problemin praktik əhəmiyyəti.** Ekskursiyaların muzeylərdə aparılması da şagirdlərdə olduqca böyük maraq doğurur. Onların məntiqi və yaradıcı təfəkkürlərinin inkişafında muzeylərin rolu böyükdür.

## ƏDƏBİYYAT

1. “Təhsil Haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün tarix fənnindən yeni təlim proqramı (kurikulum). Bakı, 2012.

**С. Рафиев**

## РОЛЬ И ЗНАЧИМОСТЬ ВНЕКЛАССНЫХ И ВНЕШКОЛЬНЫХ МЕРОПРИЯТИЙ В УЛУЧШЕНИИ УЧЕБНЫХ ДОСТИЖЕНИЙ УЧАЩИХСЯ

### *РЕЗЮМЕ*

В статье отмечается, что одной из движущих сил развития культуры важную роль играют музеи. Изучение историко-краеведческих материалов необходимо для формирования патриотического воспитания учеников. Учебные учреждения организуют работы в музеях в воспитательном, образовательном, развивающем, просвещающем, формирующем направлении. Автор отмечает, что при музеях могут быть организованы также разнообразные кружки по отдельным предметам. Экскурсия в музеи также представляет большой интерес для учеников. Велика роль музеев также в развитии их логического и творческого мышления.

**S. Rafiev**

## ROLE AND IMPORTANCE OF EXTRA AND EXTRAORDINARY ACTIVITIES IN IMPROVING STUDENTS 'TRAINING ACHIEVEMENTS

### *SUMMARY*

The article notes that museums play an important role in the development of culture. Studying of historical and regional studies materials is necessary for the formation of patriotic education of students. Educational institutions organize work in museums in an educational, educational, developmental, enlightening, formative direction. The author notes that museums can also organize a variety of mugs for individual subjects. An excursion to museums is also of great interest to students. The role of museums is also great in the development of their logical and creative thinking.

**Redaksiyaya daxil olub:** 12.02.2018